**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 15 fevral tarixli 35 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikası Radio-Televiziya Ötürücü Mərkəzi" publik hüquqi şəxsinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında**

"Naxçıvan Muxtar Respublikası Radio-Televiziya Ötürücü Mərkəzinin publik hüquqi şəxsə çevrilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2020-ci il 01 fevral tarixli 450-05/S nömrəli Sərəncamının 2.2-ci bəndinə əsasən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 15 fevral tarixli 35 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikası Radio-Televiziya Ötürücü Mərkəzi" publik hüquqi şəxsinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 4.2.6-cı yarımbənd aşağıdakı redaksiyada verilsin:

"4.2.6. Mərkəzin strukturunun, əməyin ödənişi fondunun, işçilərin say həddinin və onların əməkhaqlarının məbləğinin (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) təsdiq edilməsi üçün Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təkliflər verir və sənədlər (o cümlədən Mərkəzin maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim edir;";

1.2. aşağıdakı məzmunda 4.2.7-1-ci yarımbənd əlavə edilsin:

"4.2.7-1. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Mərkəzin ştat cədvəlini və xərclər smetasını təsdiq edir;".

2. "Naxçıvan Muxtar Respublikası Radio-Televiziya Ötürücü Mərkəzi" publik hüquqi şəxs bu Qərardan irəli gələn məsələləri həll etsin.

3. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, "26" dekabr 2024-cü il

№ 70